# Nohurqışlaq kəndinə mavi yanacaq

Sentyabr ayının 17-ni Nohurqışlaq kəndinin sakinləri yüksək sevinc içərisində yaşadılar. Həmin gün kənd mərkəzindəki stadiona yüzlərlə sakin toplaşmışdı. Burada kənd evlərinə təbii qazın verilməsinə həsr olunmuş açılış mərasimi keçirilirdi.

Mərasimdə MM üzvü, respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov, YAP Qəbələ Rayon Təşkilatının sədri Abil Ağasəfov, «Azərqaz»ın nümayəndəsi Tahir Kərimov, həmyerlimiz professor Elman Məmmədov iştirak edirdilər.

Toplantını giriş sözü ilə YAP Qəbələ Rayon Təşkilatının sədri Abil Ağasəfov açdı. Çıxış üçün ilk söz alan «Azərqaz»ın nümayəndəsi Tahir Kərimov Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin və «Azərqaz»ın rəhbərliyi adından toplantı iştirakçılarını salamladı, kənd sakinlərini mənzillərinə qaz xətti çəkilməsi münasibətilə təbrik etdi. Bildirdi ki, Qəbələnin digər yaşayış məntəqələrinə də qaz xəttinin çəkilməsi davam etdiriləcəkdir.

Kənd sakinləri o cümlədən ağsaqqallar, ziyalılar adından çıxış edən Nizami İbrahimov, Şəfəq Abdullayeva, Rafiq Süleymanov, Fazil Atakişiyev qeyd etdilər ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları haqqında ölkə başçısı İlham Əliyevin imzaladığı sərəncamlar həqiqətən hər bir rayonda böyük canlanmaya, dirçəlişə səbəb olmuşdur. Qəsəbələrdə, kəndlərdə aparılan abadlıq, quruculuq işləri hamımızda fərəh hissi doğurur. Qəbələ rayonu da belə inkişaf yolundadır. Bütün bunlar bizim hamımızı sevindirir, fərəhləndirir. Ona görə biz ölkə başçısına səmimi minnətdarlığımızı bildiririk. Qarşıdan böyük bir siyasi kampaniya gəlir. Əlbəttə, biz inanırıq ki, bu kampaniyada kəndin bütün seçiciləri cənab Prezidentimiz İlham Əliyevə təkrar olaraq yenidən səs verəcəklər.





Həmyerlimiz professor Elman Məmmədov çıxışında Nohurqışlaq kəndinin sakinlərinin bu sevincinə şərik olduğunu bildirərək onları təbrik etdi. O, qeyd etdi ki, ölkədə aparılan düzgün daxili və xarici siyasətin nəticəsidir ki, bu gün respublikamız sürətlə inkişaf edir. Bu sürət dünyanın bir çox inkişaf etmiş ölkələrini belə üstələmişdir. Nəticə isə budur ki, bütün kəndlərimiz, qəsəbələrimiz abadlaşır. Artıq böyük siyasi kampaniya—prezident seçkiləri yaxınlaşır. Yəqin ki, bütün seçicilər seçki məntəqələrinə gəlib bu uğurların qazanılmasının əsas səbəbkarı olan cənab İlham Əliyevə səs verəcəklər.



Toplantının sonunda Qəbələlilərin yaxın dostu, el ağsaqqalı Fəttah Heydərov çıxış edərək kənd sakinlərinin arzuladıqları bu xoş günün nəhayət, gəlib çatdığını söylədi. Millət vəkili sözünə davam edərək çıxış edən kənd sakinləri tərəfindən bu günkü uğurlara görə ölkə başçısı İlham Əliyevin adının çəkilməsini yüksək qiymətləndirdi və qeyd etdi ki, bu gözəl günümüz mühüm bir vaxta təsadüf edir. Artıq prezident seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası başlanmışdır. Düzgün seçim düzgün nəticə verir. Prezidentimizin gördüyü işlər göz qabağındadır. Qazanılan uğurlar, əldə olunan nailiyyətlər bizə deməyə əsas verir ki, hər bir kəs—ilk dəfə səs verən gəncdən tutmuş müdrik ağsaqqala qədər hamı İlham Əliyevə, Heydər Əliyev yolunun layiqli davamçısına səs verəcək, bizi inkişafa aparan bu yolu dəstəkləyəcək.

Sonda rəmzi açılış üçün dayağa buraxılan qazı MM üzvü, respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov və «Azərqaz»ın numayəndəsi Tahir Kərimov alovlandırdı. Mərasimə toplaşanlar alovlanan məşəli sürəkli alqışlarla qarşıladılar.

Sonda qonaqlar kənd sakini Sərdər İsmayılovun evində mavi alovun yandırılmasında iştirak etdilər və bu ailəyə xoş güzaran, uğurlu həyat arzuladılar.

**Oqtay MƏMMƏDOV.**
**Fotolar S. Umuyevindir.**

# Qabaqcıl təhsil ocağı

Qarabağ uğrunda döyüşlərdə həlak olan şəhid Nicat Apayev adına Qəbələ şəhər 4 saylı tam orta məktəbi 49 il bundan əvvəl- internat məktəbi kimi fəaliyyətə başlamış, 1993-cü ildən isə məktəbin statusu dəyişdirilərək tam orta məktəbə çevrilmişdir. Məktəbin zaman-zaman təhsil sistemində keçdiyi yolları, təlim-tərbiyədəki uğurları təhlil etdikdə, bu təhsil müəssisəsi haqqında adamda müsbət təsəvvür və xoş ovqat yaranır.

Haqqında söhbət gedən təhsil ocağı çox yaşlı olmasa da, rayonun təhsil ocaqlarının sırasında sayılan-seçilən, eyni zamanda respublikanın ən yaxşı məktəblərindən biridir. Sözsüz ki, hər bir uğurun başlanğıcı məktəbdə yaradılan nizam-intizamdan, məktəbin təcrübəli müəllim kollektivindən asılıdır. Məktəbdə 867 şagirdin təlim-tərbiyəsi ilə 111 müəllim məşğul olur. Bu böyük müəllim və şagird kollektivinin direktoru tanınmış pedaqoq, öz biliyi, təcrübəsi ilə təhsilə dayaq verən Qəşəngi Musayevadır. O, bu məktəbə direktor təyin ediləndən bəri təlim-tərbiyə göstəriciləri yüksəlmiş, məktəbdə sağlam mənəvi-psixoloji mühit yaradılmışdır. Eyni zamanda təhsil ocağında müəllim-şagird pedaqoji əməkdaşlığının yeniləşməsinə geniş meydan açılmış, demokratik ab-havanın yaranmasına imkan genişləndirilmişdir.

Məktəbdə valideynlərlə sıx əlaqə yaradılması da təlim-tərbiyənin səmərəliliyində az rol oynamamışdır. Tarixi günlərlə və bayramlarla əlaqədar keçirilən tədbirlərdə ictimaiyyət nümayəndələrinin, valideynlərin mütəmadi olaraq iştirakı təmin edilir. Burada açıq dərslərin keçirilməsinə, qabaqcıl təcrübənin öyrənilməsinə üstünlük verilir. Bütün bunlara görə məktəbdə çalışan müəllimlərdən Əmir Cəfərov, Mövlud Mahmudov, Almaz Ağayeva, Təranə Səlimova və Nuriyyə Məmmədova dövlət qayğısından kənar qalmadı. Təqdirə layiq haldır ki, hər il təhsillə bağlı rayon və respublika səviyyəsində keçirilən idman və bilik yarışlarında, müsabiqələrdə, ali məktəblərə qəbulda məktəbin adı yaxşılar sırasında çəkilir. Məktəbin «Zəka» komandası rayonun ümumtəhsil məktəbləri arasında keçirilən bilik yarışının 3 ildir ki, qalibidir. Məktəbin məzunu Dilarə Əzimova respublika olimpiadasında kimya fənni üzrə IV yerin, Həcər Quliyeva kimya fənni üzrə III yerin qalibi olmuşdu.

Azərbaycan Respublikasının FHN-i tərəfindən 2012-ci ildə məktəblilər arasında keçirilən «Fövqəladə hallar uşaqların gözü ilə» II ümumrespublika yaradıcılıq müsabiqəsində məktəbin IX sinif şagirdi A. Nəsirova «Yumşaq oyuncaq» Həmrəylik İctimai Birliyi və Amerika Məzunlar Asossasiyası tərəfindən «Qadın və həyat» riski mövzusunda keçirilən inşa yazı və əl işləri müsabiqəsində «Əl işləri» nominasiyası üzrə 1-ci yerə çıxmış, diplom və notbukla mükafatlandırılmışdır.

Ötən dərs ilində XI sinif şagirdi Gülay Məmmədova «Heydər Əliyev məktəblilərin gözü ilə inşa müsabiqəsində xüsusi diploma layiq görülmüşdür. Onun inşası ulu öndərə həsr edilmiş inşalar toplusuna daxil edilmişdir. Bundan başqa məktəbin məzunu Durna Abdurəşidli 2012-ci ildə M. F. Axundzadənin 200 illiyi ilə bağlı keçirilən inşa müsabiqəsində III-cü yerə çıxmış, Təhsil Nazirliyi tərəfindən diplomla təltif edilmişdir. Son beş ildə məktəbi bitirən 394 nəfərdən 174 nəfəri ali məktəblərə vəsiqə almışdır. 2012-ci ilin məzunlarından 13 nəfəri test üsulu ilə 500-dən yuxarı bal toplayaraq respublikamızın ən nüfüzlü ali məktəblərinə qəbul olunmuşdur. Bu məktəbin məzunlarından Dilarə Əzimli 663 bal, Günel Ağayeva 638 bal, Anar Şirinov 614 bal, Rəşad Əliyev 605 bal toplayaraq sevimli müəllimlərinin etimadını doğrultmuşlar. 2012--2013 dərs ilinin yekunları da sevindiricidir. 74 nəfər məzundan 41 nəfəri ali məktəblərin müxtəlif ixtisas fakültələrinə qəbul olunub.

**(Ardı 4-cü səhifədə).**